QARABAĞ AZƏRBAYCANDIR!



Polis xalqımıza, müstəqil Azərbaycan dövlətinə, onun hər bir vətəndaşına xidmət edir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

30 dekabr 2020-ci il
Çərşənbə

№ 48 (3513)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

## DÜNYA AZƏRBAYCANLILARINA



**Əziz həmvətənlər!**

**Hörmətli soydaşlar!**

***Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.***

***2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.***

***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.***

***Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.***

***Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.***

***Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.***

***Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.***

***Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.***

***Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.***

***Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.***

***Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.***

***Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.***

***Əziz həmvətənlər!***

***Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 29 dekabr 2020-ci il.*

## TARİXİ ZƏFƏRİN NİDASI!

### Dövlətimizin başçısı bu dəfə Azərbaycan bayrağını Qubadlıda və Zəngilanda ucaltdı

İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, Ali Baş Komandanı olduğu ordumuzun qüdrətini və xalqımızın milli birliyini bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız artıq işğaldan azaddır.

Azad olunmuş Cəbrayıl, Füzuli və Ağdam rayonlarından sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 23-də Zəngilan və Qubadlı rayonlarına səfər etdilər.

İlham Əliyev bu dəfə Azərbaycan bayrağını Qubadlıda və Zəngilanda ucaltdı. Müzəffər Ali Baş Komandan bir daha bütün dünyaya göstərdi ki, işğaldan azad olunmuş bu torpaqlar Azərbaycan dövlətinin ərazisidir.

Cəbrayıldan Zəngilan və Qubadlıya doğru uzanan yollarda birinci xanım Mehriban Əliyevanın etdiyi çəkilişlər bir daha məlum həqiqətləri bütün dünyaya nümayiş etdirdi. Biz işğalçı, terrorçu düşmənlə yox, həm də vandallarla, vəhşilərlə üz-üzə qalmışdıq. Tarixdən də bəllidir ki, bütün müharibələr zamanı yaşayış məskənlərini, maddi mədəniyyət nümunələrini dağıdanlar yalnız və yalnız mədəni inkişafdan geri qalan, yırtıcı şüur və təfəkkürə malik barbarlar olublar.

"Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan "beynəlxalq məmurlar" öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq", - deyə Prezident İlham Əliyev Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidlə tanışlıqdan sonra bildirdi.

Zəngilan və Qubadlı tarixi Azərbaycan əraziləri, qədim yurd yerlərimizdir. Bu torpaqların hər qarışında, hər addımında zəngin və şərəfli tariximizin, milli-mədəni və mənəvi dəyərlərimizin izi var. Tökülən şəhid qanları ilə bu torpaqlar daha da müqəddəsləşdi. Tezliklə bu rayonların hər birində həyat yenidən canlanacaq və İlham Əliyevin yüksəliş siyasətinin təntənəsi olan Qubadlıda, Zəngilanda və bütün Qarabağda yaşanacaq.

***Prezident İlham Əliyev dekabrın 25-də səfərbərlik üzrə hərbi xidmətdən tərxisetmə haqqında sərəncam imzalayıb.***

***Prezident İlham Əliyev dekabrın 25-də Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında sərəncam imzalayıb.***

## Daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyətinə



Hörmətli həmkarlar!

Yola saldığımız 2020-ci ildə ölkəmizdə ictimai-siyasi sabitlik daha da möhkəmlənmiş, digər hüquq mühafizə orqanları ilə sıx qarşılıqlı əlaqədə cinayətkarlığa qarşı böyük əzm və qətiyyətlə mübarizə aparılmış, asayişin və daxili təhlükəsizliyin qorunması funksiyaları layiqincə həyata keçirilmişdir. Möhkəm nizam-intizama, yüksək peşəkarlığa, müasir maddi-texniki imkanlara malik olan daxili işlər orqanları və Daxili Qoşunlar respublikada karantin rejiminin təmin edilməsi sahəsində də üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlmiş, qarşıya qoyulmuş tapşırıqların icrasında vətənpərvərliyi və anda sadiqliyi ilə fərqlənmişlər.

Eyni zamanda, Daxili Qoşunların hərbi qulluqçuları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində şanlı tarix yazan rəşadətli Ordumuzla birgə ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə mərdlik, igidlik və cəsurluq nümunələri göstərmiş, orden və medallara layiq görülmüşlər.

Bütün bu möhtəşəm uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun Dövlət Başçısı tərəfindən müvəffəqiyyətlə davam etdirilməsinin, dinamik iqtisadi inkişafın, məqsədyönlü ordu quruculuğunun, ölkə həyatının bütün sahələrini əhatə edən köklü islahatların məntiqi nəticəsidir.

Əminəm ki, bundan sonra da vətəndaşlarımızın qanuni mənafelərinin, insan hüquq və azadlıqlarının müdafiəsi kimi məsul vəzifələri əzmlə yerinə yetirəcək, möhtərəm Prezidentin, Ali Baş Komandanın yüksək etimadını doğruldacaqsınız.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bütün şəxsi heyəti və hörmətli veteranlarımızı səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda yeni-yeni nailiyyətlər arzulayıram.

Bayramınız mübarək!

***Vilayət Eyvazov,***
***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik***

# YENİ İNZİBATİ BİNALAR İSTİFADƏYƏ VERİLİB

Dekabrın 24-də Daxili İşlər Nazirliyinin Sabunçu rayonunun Nardaran qəsəbəsindəki xidməti binası və Əlahiddə Çevik Polis Alayının yeni korpusu istifadəyə verilib.

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov hər iki tədbirdə iştirak edib.

Nazir görülən işləri yüksək qiymətləndirib, şəxsi heyətin daha səmərəli fəaliyyət göstərməsi üçün yaradılan şəraitdən məmnunluğunu bildirib, konkret tapşırıq və tövsiyələrini verib. O, qeyd edib ki, daxili işlər orqanlarının maddi-texniki bazasının, əməkdaşların xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir. Yeni inzibati binaların istifadəyə verilməsi də şəxsi heyətə dövlət qayğısının növbəti əyani təzahürüdür.

Nazir V.Eyvazov Daxili İşlər Nazirliyinin hərbi qulluqçularına və əməkdaşlarına göstərilən ali diqqət və qayğıya görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlığını bildirib və onu əmin edib ki, daxili işlər orqanlarının şəxsi heyəti göstərilən dövlət qayğısını və yüksək etimadı xalqına, Vətəninə sədaqətli xidməti ilə doğruldacaqdır.







# Maarifləndirmə və mübarizə tədbirləri davam etdirilir

COVID-19 infeksiyanın ölkə ərazisində yayılmasının qarşısının alınması məqsədilə elan edilən karantin rejimi qaydaları çərçivəsində polis əməkdaşları tərəfindən nəzarət-profilaktik tədbirlər daha da gücləndirilib. Bu məqsədlə paytaxt və bölgələrdə polis əməkdaşlarından təşkil edilən mobil qruplar vasitəsi ilə sanitar-karantin qaydalarına əməl edilməsi daim nəzarətdə saxlanılır.



Reydlər zamanı qapalı yerlərdə, ictimai nəqliyyatda polis əməkdaşları tərəfindən insanlar arasında profilaktik söhbətlər aparılaraq onlara sanitar-epidemioloji qaydalara əməl etməyin, sosial məsafənin təmin edilməsinin, eləcə tibbi maskadan istifadənin zəruriliyi barədə məlumatlar verilir.

Təəssüflər olsun bəzi vətəndaşlar qaydalara riayət etməyə məsuliyyətlə yanaşmır. Ən narahatçılıq doğuran səbəblərdən biri "COVID-19" infeksiyasına yoluxmuş sakinlərin yaşayış yerini tərk etməsi barədə məlumat daxil olmasıdır. Bəzi vətəndaşların koronavirus testinin nəticəsi pozitiv olduğuna görə, onlara ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, karantin qaydalarını pozaraq yaşayış yerlərini tərk edirlər. Polis əməkdaşları tərəfindən karantin qaydalarını pozan və vətəndaşların sağlamlığı üçün ciddi təhlükə yaradan vətəndaşların qanunazidd hərəkətlərinin qarşısı alınaraq, onlar həkim briqadasının da müşayiəti ilə koronavirus xəstələrinin müalicə aldığı xəstəxanaya yerləşdirilirlər, evdə müalicə olunanlar isə evlərinə çatdırılırlar.



Paytaxtda və eləcə də bölgələrimizdə həyata keçirilən reydlərdə sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən, dəfələrlə edilən xəbərdarlıqlardan nəticə çıxarmayan şəxslər qanunvericiliyə uyğun olaraq, inzibati məsuliyyətə cəlb olunublar. Bakı, eləcə də digər rayon və şəhərlərdə karantin qaydalarına əməl olunmasını təmin etmək məqsədi ilə polis əməkdaşları tərəfindən nəzarət bundan sonra da mütəmadi olaraq davam etdiriləcək.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Daxili İşlər Nazirliyi vətəndaşlara xəbərdarlıq edir!

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkənin bəzi şəhər və rayonlarında tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejimi ilə əlaqədar həmin inzibati ərazilərə giriş-çıxış yalnız müvafiq ezamiyyə vərəqələri və ya "icaze.e-gov.az" portalına daxil edilmiş məlumatlar əsasında həyata keçirildiyindən son vaxtlar xüsusilə Bakı, Sumqayıt şəhərlərinin və Abşeron rayonunun ərazisində yaşayan və işləyən şəxslərin kütləvi şəkildə ailə üzvləri ilə birgə məhz həftəsonu və ya bayramqabağı ezamiyyə adı ilə respublikanın ayrı-ayrı bölgələrindəki istirahət zonalarına getmələri müşahidə olunur.

Verilən icazədən sui-istifadə hallarının qarşısının alınması məqsədilə bir daha nəzərə çatdırırıq ki, həftənin şənbə və bazar, habelə bayram günləri xüsusi karantin rejimi tətbiq edilmiş inzibati ərazilərə giriş və ya çıxış etməyə cəhd edənlər karantin postlarından buraxılmayacaqlar.

Daxili İşlər Nazirliyi vətəndaşları xəbərdar edir ki, sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunan şəhər və rayonların inzibati ərazilərində, o cümlədən istirahət mərkəzlərində polis və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən mütəmadi reydlər keçiriləcək və bu zaman iş icazələrindən sui-istifadə edərək istirahət mərkəzlərində olan şəxslər aşkar ediləcəyi təqdirdə belə icazələr ləğv ediləcək, habelə onlar qanunvericiliyə uyğun olaraq, məsuliyyətə cəlb olunacaqlar.

Bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

Səbrli və anlayışlı vətəndaşlarımıza qabaqcadan təşəkkür edirik.

# TARİXİMİZİN ƏN GÜCLÜ AZƏRBAYCANI

Yola salmaqda olduğumuz 2020-ci il tarixdə insanlığın sınağa çəkildiyi ən sərt illərdən biri kimi xatırlanacaq. Kabus kimi bəşəriyyətin üzərinə çökən yeni növ koronavirus infeksiyasının yayılması insanlığa öldürücü xəstəlik gətirməklə yanaşı, eyni zamanda çoxsaylı məcburi izolyasiya tədbirləri, məhdudiyyətlər, nəticə etibarı ilə mədəni, mənəvi, iqtisadi sahəyə yeni təlatümlər gətirmiş oldu. Lakin dünyanın koronavirus pandemiyasından (COVID-19) ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin belə bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycanın pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoyaraq bir daha təsdiqlədi ki, ölkəyə rəhbərlik edən liderin müdrik qərarları bəzən bütöv bir xalqı faciədən hifz edir.

Pandemiya ölkəmizin sərhədlərinə çatanda Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün dövlət proqramının işlənib hazırlanması barədə verdiyi göstəriş onun növbəti müdrik qərarlarından biri oldu və bununla da vətəndaşların qayğılarını şəxsən nəzarətə götürdü. Sosial təcrid tədbirləri nəticəsində iş yerlərini müvəqqəti itirmiş vətəndaşlara və sahibkarlıq subyektlərinə ciddi dəstək oldu.

Pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədi ilə dəyəri 2,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbulu cəmiyyətdə ciddi dəstək və razılıqla qarşılandı. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən dəstəklənməsi, 300 minə yaxın mikro sahibkarın, ümumilikdə, 600 minə yaxın insanın dövlətdən maddi yardım alması ölkə rəhbərinin daim xalqın yanında olduğunun əyani təsdiqi oldu.

Pandemiya dövründə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial dəstək aksiyası da aztəminatlı vətəndaşların problemlərinin həlli baxımından əhəmiyyətli oldu. "Biz birlikdə güclüyük" şüarı ilə həyata keçirilən aksiya çərçivəsində respublika üzrə 100 minədək aztəminatlı ailəyə ərzaq yardımlarının paylanılması təmin edildi.

Səhiyyənin inkişafını daim diqqət mərkəzində saxlayan dövlət başçısının tapşırığı ilə tikilib istifadəyə verilən yeni xəstəxanalar pandemiya ilə mübarizədə böyük imkanlar yaratdı. İl ərzində ölkədə pandemiya ilə bağlı laboratoriyaların sayı 8 dəfə artırıldı, 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikildi, "COVID" xəstələri üçün 10 mindən çox çarpayı yeri yaradıldı. Həkim çatışmazlığı probleminin həlli üçün 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən mütəxəssislər dəvət edildi.

Beynəlxalq həmrəyliyin əldə edilməsi üçün Azərbaycan dövlət başçısı ölkə liderlərini bir araya gətirdi. Dekabrın 3-4-də Azərbaycan Prezidentinin təşəbbüsü, 70-dən çox dövlət və hökumət başçısının iştirakı ilə BMT Baş Assambleyasının koronavirus pandemiyasına həsr olunmuş 31-ci xüsusi sessiyasının keçirilməsi ölkəmizin bu başəri bəlaya qarşı səylərin birləşdirilməsində maraqlı olduğunu, habelə pandemiyaya qarşı qlobal mübarizə işinə sanballı töhfələr verdiyini təsdiqlədi.

Bu gün respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, milli barışıq mühiti demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə sürətli iqtisadi tərəqqinin başlıca təminatlarından biridir. Bu, eyni zamanda Qarabağ münaqişəsinin ədalətli həlli üçün də əsas şərt sayılmalıdır, çünki məhz ictimai təhlükəsizliyi inamlı şəkildə təmin edilən dövlət öz haqq və hüququnu tələb edə bilir.

İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində artilleriya atəşi nəticəsində hərbçilərimiz və mülki şəxslər həlak oldular. Azərbaycan düşmənə layiqli cavabını verdi və ölkəmizin ərazi bütövlüyü qorundu. Bu, bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışmaq mümkün deyil. Ancaq görünür düşmən bu reallığı görə bilmədi və avqust ayında növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azəbaycana göndərdikləri diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən tutuldu. Onun ifadələrindən açıq-aydın göründü ki, təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün göndərilib.

**Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli iqtisadi inkişaf yolu keçən Azərbaycan qarşıya qoyduğu hədəflərə çatır. İqtisadi inkişafı isə etibarlı sabitlik dəstəkləyir**

Ermənistanın hərbi təxribatları, eyni zamanda, bu ölkənin rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapırdı. Ermənistan baş nazirinin Qarabağın Ermənistana aid olmasını bəyan etməsi, qədim şəhərimiz Şuşada qondarma "andiçmə" mərasimi keçirilməsi, qanunsuz məskunlaşdırma kimi təxribatları bir-birini əvəz edirdi. Ermənistan rəhbərliyinin danışıqlardan faktiki olaraq imtina edərək Azərbaycana qarşı qəbuledilməz və əsassız şərtlər irəli sürməsi, terrorçu qruplaşmaları, muzdlu döyüşçüləri işğal etdiyi ərazilərimizdə yerləşdirməsi, cəbhə bölgəsində və qoşunların təmas xəttində açıq təxribatlar törətməsi hərbi əməliyyatların bərpası ehtimalını zamanla daha da artırırdı.

Nəhayət sentyabrın 27-də düşmənin mövqelərimizə həmlə etməsinə Azərbaycan Ordusu əks-hücumla cavab verdi və beləcə tarixi zəfərlə sona yetən ikinci Qarabağ müharibəsi başladı.

Azərbaycan bu müharibəni və 2020-ci ili böyük tarixi Zəfərlə başa vurur. 44 günlük Vətən müharibəsində qazandığımız layiqli qələbə bu gün hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, hər kəsdə qürur və fəxarət hissi doğurur.

44 günlük müharibədə 5 rayonunu, 2 şəhər tipli qəsəbəsini, 300-dək kəndini işğaldan azad edən Azərbaycan Ermənistanı hərbi kapitulyasiya barədə sənədi imzalamağa məcbur etdi. Beləliklə, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanın işğalçılıq siyasəti üzündən 30 il müddətində həllini tapmayan münaqişənin qısa müddətdə hərbi-siyasi həllinə nail olaraq beynəlxalq hüquq normalarının və ədalətin bərpasını təmin etdi. Azərbaycan döyüş meydanında parlaq qələbə qazanmaqla, siyasi meydanda da istəyinə nail oldu.

Üçtərəfli 10 noyabr sazişinin imzalanması ilə faktiki olaraq Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə çevrildi.

10 noyabr sazişinə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan dinc yolla azad edilməsi məhz Azərbaycanın şanlı hərbi qələbəsi nəticəsində mümkün oldu. Ermənistan döyüş meydanında məğlub olmasaydı, öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı. Möhtərəm Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan döyüş meydanında Ermənistan ordusunu sarsıdaraq, hərbi texnikasının 80 faizini məhv edərək onun saxta "yenilməzlik mifi"ni darmadağın etdi.

Azərbaycanın hərbi-siyasi qələbəsi nəticəsində imzalanmış məlum üçtərəfli Bəyanat əsasında dekabrın 1-də Laçın rayonunun işğaldan azad edilməsi təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda Ermənistanın son 30 ildə təcavüzkar siyasətini reallaşdırmaq üçün sərf etdiyi böyük maliyyə vəsaitinin, iqtisadi, siyasi və diplomatik cəhdlərinin tam fiasko ilə üzləşməsi deməkdir.

2021-ci il tikinti, bərpa-quruculuq, müharibə yaralarının sarınması ili olacaq. Ərazilərimizin bərpası və yenidən qurulması tədbirləri üçün 2,2 milyard manat vəsaitin nəzərdə tutulması gələn ilin "Böyük qayıdış" planının reallaşdırılması baxımından mühüm mərhələ olacağını göstərir.

*Aytəkin Nəcəfova,*
*Rəşad Mehdiyev*

# “İlin siyasətçisi”

## Prezident İlham Əliyev əsl triumf əldə edən liderdir

Rusiyanın məşhur “Vedomosti” nəşri altı nominasiya üzrə ilin personası ilə bağlı illik xüsusi layihəsinin nəticələrini dərc edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nəşrin oxucuları arasındakı səsvermədə “İlin siyasətçisi” seçilib.Nəşr yazır: “İlham Əliyevi haqlı olaraq ordusu 2020-ci ildə inamlı hərbi qələbə qazanan, region miqyasına görə isə əsl triumf əldə edən yeganə lider adlandırmaq olar”.

Qeyd edək ki, “İlin siyasətçiləri” nominasiyasının namizədləri siyahısında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko da olub.

ABŞ-ın yeni seçilmiş Prezidenti Co Bayden isə redaksiya seçimi əsasında “İlin siyasətçisi” elan edilib.

Azərbaycan Prezidenti İlham Əliyev Silahlı Qüvvələrin hərbi qulluqçularının medallarla təltif edilməsi haqqında bir neçə sərəncam imzalayıb.

Prezidentin dekabrın 24-də imzaladığı sərəncamla Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş hərbi qulluqçular “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif olunublar.

Dekabrın 25-də isə Füzuli, Zəngilan və Xocavənd rayonlarının düşmən işğalından azad olunmasında fərqlənən hərbçilərimiz dövlətimizin başçısı tərəfindən mükafatlandırılıb.

# Prezident hərbçiləri mükafatlandırdı

## Hərbi əməliyyatlar zamanı fərqlənmiş daha bir qrup hərbi qulluqçu təltif olunub

Prezidentin imzaladığı sərəncama əsasən Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş hərbi qulluqçular “Füzulinin azad olunmasına görə”, Zəngilan rayonunun azad edilməsində fərqlənənlər “Zəngilanın azad olunmasına görə” və Xocavəndin işğaldan qurtarılmasında igidlik göstərənlər “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif ediliblər.

Prezident İlham Əliyevin dekabrın 29-da imzaladığı növbəti sərəncamla hərbi qulluqçular “Şuşanın azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Suqovuşanın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalı ilə təltif ediliblər.

# Azərbaycan tranzit ölkəyə çevrilir

Dekabrın 28-də Prezidenti İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7,5 kilometrlik hissəsinin, yindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olub.

Dövlətimizin başçısı “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 30 kilometrlik birinci hissəsinin açılışında da iştirak edib.

Ölkəmizdə koronavirus infeksiyasına yeni yoluxanların və müalicə olunub sağalanların sayı ilə bağlı hər gün açıqlanan rəqəmlər pandemiya ilə yalnız birgə mübarizənin müsbət nəticələr verə biləcəyini göstərir. Yoluxmaların çox olmasına baxmayaraq, sağalanların sayının gündən-günə artması pandemiyanın ikinci dalğasının tezliklə ötüb-keçəcəyi proqnozunu verməyimizə əsas yaradır. Hələ pandemiyanın ölkəmizə yenicə "ayaq açdığı" günlərdən bəri "Biz birlikdə güclüyük" şüarının elan edilməsilə ilkin və doğru konsepsi-




biri olub, lakin hazırkı pandemiyada bu, daha dərin məzmun qazanıb. Vətəndaşların sağlamlığını qorumaq artıq hər hansı hüquq pozuntusu və ya cinayət hadisəsindən zərər çəkməmək təminatı kimi başa düşülmür. Polis hazırda sağlamlığımızı qoruyan həkimlərimiz kimi pandemiya ilə mübarizədə birbaşa iştirak edir, onlarla “ön cəbhəni” bölüşürlər.

Təbii ki, bu, vəzifə borcudur. Ancaq polis xidmətinə həm də vətəndaş yanğısı ilə yanaşır və insanları qorumağa, birgə mübarizə üçün imkanları səfərbər etməyə çalışır. İndi mübarizənin müqəddəratı üçüncü tərəfdən – vətəndaşdan daha çox asılıdır.

Əgər hər birimiz özümüzü qorumasaq, qayda-qanunlara əməl etməsək, tibb işçilərinin və polisin bütün əməyi hədər gedə, epidemoloji vəziyyətin kritik həddi belə keçməsinə səbəb olar. Təəssüf ki, bu təhlükəyə baxmayaraq, tətbiq edilən qaydalar və karantin rejiminin qadağaları bəzən unudulur, hazırkı gərgin epidomoloji vaxtda toy edənlərə, məclis təşkil edənlərə rast gəlinir. Bu sadəcə sıradan biganəlik sayıla bilməz, başqalarının ölümünə səbəb olan cinayətkarcasına məsuliyyətsizlikdir və buna görə də cinayət məcəlləsində müvafiq qaydada cəza təhdidi yaradan hal kimi təsbit olu-

# Məsuliyyətsizlik bizi təhdid edir

## Pandemiya ilə mübarizədə vətəndaşların üzərinə böyük məsuliyyət düşür

ya müəyyən edilib. Deyə bilərik ki, uğurlu sonluq bu şüarın da ifadə etdiyi kimi, həmrəyliyimizə bağlıdır.

Prinsip etibarı ilə koronavirusla aktiv mübarizə meydanında üç tərəf - tibb işçiləri, polis və nəhayət, vətəndaşların özləri virusla qarşı-qarşıya dayanıb.

Tibb işçiləri hər bir xəstənin ağ xalatlı xilaskarları kimi fədakarlıq göstərir, yoluxan insanları həyatda saxlamaq üçün var gücləri ilə mübarizə aparırlar. Onlar virusla mübarizənin ön cəbhəsində həyatlarını riskə atma bahasına başqalarını xilas edirlər. İndiyədək neçə-neçə həkim bu amal uğrunda həyatını itirib.




Sərt karantin rejiminin başlanması ilə polis də ona həvalə olunan vəzifələrin həyata keçirilməsini ən yüksək səviyyədə təmin edir. SMS icazələrin yoxlanılması, profilaktik-nəzarət tədbirlərinin görülməsi, yaşayış yerini tərk edən aktiv virus daşıyıcılarının aşkar edilməsi və karantin rejminin tələblərini pozulması hallarına qarşı hüquqi cəza tədbirlərinin tətbiqi xidmətin miqyasını genişləndirsə də, istər əsas vəzifə öhdəlikləri, istərsə də pandemiya ilə əlaqədar həvalə olunmuş əlavə işlər əməkdaşlarımız tərəfindən uğurla davam etdirilir.

İnsanların hüquq və azadlıqlarının müdafiəsi kimi sağlamlıqlarının qorunması da polisin daim əsas vəzifələrindən

nur. Bu mənada, xəstə olduğunu bilənlərin evdən çıxması, ətrafdakıları yoluxdurması, gizlin toy-şənlik keçirib kütləvi yoluxma riski yaradanların davranışı başadüşülən deyil.

Belə neqativ halların qarşısının alınması üçün polisin keçirdiyi operativ və qabaqlayıcı tədbirlər nəticəsində hər gün məsuliyyətə cəlb edilənlər olur. Bu, başqaları üçün çəkindirici faktordur, əlbəttə, ancaq ümumi bəlanın öhdəsindən gəlməyin ən optimal yolu vətəndaşların könüllü iştirakından keçir. Bir nəfərin məsuliyyətsizliyi, laqeydliyi bir neçə nəfərin sağlamlığını, həyatını təhdid edir. Bunu görməzlikdən gəlməyə heç kəsin haqqı yoxdur.

*R.Mehtiyev*

Xocalı soyqırımına həsr olunmuş “Sonsuz dəhliz” filminin müəllifi litvalı jurnalist, ictimai xadim Riçardas Lapaitis öz sevincini azərbaycanlılarla bölüşüb. O, Azadlıq meydanında keçirilən hərbi parad barədə təəssüratlarını belə ifadə edib: "Erməni işğalçılarının məğlub olması münasibətilə keçirilən Zəfər Paradı mənim üçün böyük, həm də şəxsi bayram oldu. Böyük itkilər bahasına Azərbaycan öz ata-baba torpaqlarını azad etdi."



Onun sözlərinə görə, Zəfər Paradı Azərbaycan xalqının - tərəfindən dinc sakinlərin öldürülməsinin, tarixi və mədəni irsin vandalizmə məruz qalmasının, muzdluların, terrorçuların, Azərbaycana qarşı vuruşduğunun şahidi olub.

Kimsə ruhdan düşəndə həmin adama deyərdim: "Mənə bax, litvalıya - əgər mən Azərbaycan ordusunun düşmən üzərində qalib gəlməyinə inanıramsa, sənin şübhə etməyə haqqın yoxdur."

Litvalı hərbi jurnalist bu gün çox xoşbəxt olduğunu dilə gətirib. Çünki arzusu gerçək olub, Azərbaycan Or-

# DOST DƏSTƏYİ, DOST SÖZÜ

## Litvalı jurnalistin Azərbaycan sevgisi

diplomatların, siyasətçilərin, ictimai xadimlərin, bütün ölkə vətəndaşlarının böyük bayramı, qürur və iftixar mənbəyidir. Azərbaycan bilməlidir ki, tək deyil.

"İllər öncə məndən Qarabağ münaqişəsinin həllini necə gördüyümü soruşmuşdular. Mən də Azərbaycan ordusu, Azərbaycan əsgəri torpaqlarını işğalçıdan azad edəcək və bu münaqişə müharibə yolu ilə öz həllini tapacaq demişdim. Mən daim cəbhəyə səfər edən azsaylı xarici jurnalistlərdən idim. Təhdidlərə və hədə-qorxuya baxmayaraq, cəbhədə nə baş verdiyini obyektiv şəkildə danışıb, ictimaiyyətə çatdırırdım. Deyirdim ki, Azərbaycan tarixi torpağını işğalçıdan azad etmək üçün təcavüzkarla üz-üzə dayanıb, kənddən-kəndə, şəhərdən-şəhərə, zirvədən-zirvəyə mübarizə aparmaqla, düşməni gəldiyi yerə qovmalıdır.”

Litvalı jurnalist onu da əlavə edib ki, müharibə zamanı erməni vəhşiliyinin, işğalçılar dusu torpaqları işğaldan azad edib. Azərbaycan tarixə ərazi bütövlüyü və ədalət uğrunda, beynəlxalq terrorçulara qarşı mübarizə nümunəsi kimi düşəcəkdir.

Lapaitis deyir ki, bütün dünya azərbaycanlıların torpağına, yurduna necə qiymət verdiyinin, onun azadlığı üçün canından keçdiyinin şahidi oldu.

"Azərbaycan dostları Azərbaycan əsgərinin igidliyini əbədi olaraq xatırlayacaq. Azərbaycan əsgəri, sən mənim qəhrəmanımsan! Sən öz müqəddəs savaşınla əlçatmaz zirvələrə qalxdın və hər zaman milyonlarla insanın qəlbində yaşayacaqsan.

Hörmətli Azərbaycan xalqını, jurnalist yoldaşlarımı bu tarixi gün münasibətilə təbrik etmək istəyirəm. Sənə eşq olsun, Azərbaycan! Litva sizinlədir! ", - deyə Litvanın hərbi jurnalisti R. Lapaitis bildirib.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# SOSİAL ŞƏBƏKƏLƏR: TƏHLÜKƏ HARADAN GƏLİR?

## Bir dəli quyuya daş atır, əlli adam çıxarmağa çalışır

Hazırda pandemiya dünyanın gündəmini məşğul edən əsas mövzudur. Bizim ictimai rəy də koronavirus bəlasına və bəlkə ondan daha çox Qarabağ müharibəsində əldə etdiyimiz şanlı qələbəyə köklənib.

Həyat isə öz axarı ilə davam edir və onun gündəlik həyatımıza gətirdiyi başqa gerçəkliklər var, onlara da diqqət ayırmağımız faydalı olar. Sosial şəbəkələri bu baxımdan qiymətləndirməmək mümkün deyil. O həyatımıza yeni fenomen kimi daxil olub, informasiyanın sürətini artırıb və onunla “ayaqlaşmaq” üçün daha iti addımlamağımız lazım gəlir. Bu yeni texnologiya və ona sıx bağlı informasiya erası yeni tələblər, yeni kriminal təhdidlər ortaya çıxarır.

Biz gündəlik həyatımızda çağdaş təhlükələrin necə problemlər yaratdığının şahidi oluruq. Cinayətkarlığa qarşı mübarizə kontekstində isə məsələ daha çox diqqət cəlb edir, etməlidir də. Çünki cinayətlər cəmiyyətin təhlükəsizlik maraqlarına toxunur.

Yeni risklər bir çox halda məhz cəmiyyətin dayaqlarını sarsıdır ki, sosial şəbəkələr bəzən bunun üçün təhlükəli daşıcıya çevrilir. Ümumən dünyada sosial şəbəkələrin təsiri barədə müxtəlif səviyyələrdə müzakirələr gedir. Tənqid olunan nüanslar haqqında heç sosial medianın nə olduğunu bilməyən təbəqə tərəfindən də məişət səviyyəsində giley-güzar eşidilir. Deməli, buradan gələn təhlükə az-çox hamıya sirayət edir, insanlar bunu öz həyatlarında hiss edirlər.

Bəs bunların cinayətkarlıqla nə əlaqəsi var, ümumiyyətlə əlaqə varmı? Tədqiqatlar göstərir ki, var. Nüfuzlu “The İndependent” nəşri elmi-psixoloji araşdırmalara istinadən yazırdı ki, ABŞ-da orta hesabla hər 12 gündən bir silahlı atışma baş verir. Əgər bloger və sosial media istifadəçiləri öz aralarında sözü bir yerə qoyub, bu xəbərləri yaymasalar, silahlı cinayətlərin sayı 30 faiz azala bilərdi.

Söz yox, belə cinayət hadisələri, silahlı hücum halları bizim üçün xarakterik deyil. Ancaq elə cinayətlər var ki, azsaylı da olsa ona bəraət qazandıran tapılır və belə təhlükəli fikir, baxış dərhal tirajlanır, yayımlanır. Hər hansı cinayət hadisəsinin motivinə haqq qazandıran yüzlərlə adamın əlində sosial mediadan öz fikrini təlqin etmək imkanı yarandığına görə növbəti cinayət törətmək istəyən adamın qanunsuz əməli bəri başdan təqdir toplayır. Bu isə cinayətlərin sayında artım təhlükəsi yaradır. Çünki qanunsuz hərəkətə ictimai bəraət qazandıran təbəqə sosial platformada aktiv müdafiəçiyə çevrilir və nəticə etibarı ilə, bundan cəmiyyətin qanuni maraqları, qanunun aliliyi zərər çəkir.

Bir misal.

Bəzi ailədaxili münaqişlərdə qadınların fiziki zorakılığa məruz qaldıqları sirr deyil. Bir çoxunun düşüncəsində həyat yoldaşını döyən ərin “zəhimli” kişi obrazı öz yerini, təəssüf ki, qoruyub saxlamaqdadır. Belə görünür döyməyə görə qanunda nəzərdə tutulan hüquqi məsuliyyət hələ ictimai şüura tam anlamıyla daxil olmayıb. Bəlkə zamanla həll olunacaq, ancaq buna mane olan amillərin sırasına sosial şəbəkələr də qoşulur. Çünki sosial şəbəkədə öz “həqiqətini” yayanların cəmiyyətə təhlükəli mesaj ötürmələri üçün geniş imkanları yaranıb.

Cinayətkarlığa qarşı mübarizənin uğuru polis - vətəndaş münasibətindən asılı olduğuna görə bütün bu komponentlər kriminogen vəziyyətə təsir edə bilir. Necə deyərlər, bir dəli quyuya daş atır, əlli adam onu ordan çıxarmağa çalışır.

Sözsüz ki, sosial medianın xeyirli tərəfləri daha çoxdur və qeyd edilən tənqidi fikirlər heç də onun başdan-ayağa təhdid olduğunu çatdırmaq üçün işlədilmir. Biz sadəcə olaraq təsirlərdən danışırıq…

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Ötən həftədən qeydlər: Azərbaycan həqiqətləri və erməni yalanı

Rusiyanın “Rossiya 1” telekanalında mütəxəssislər Qarabağ ətrafında baş verənləri müzakirə ediblər. “60 minut” (“60 dəqiqə”) verilişində qonaq olan Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti, “Kommersant” Nəşrlər Evinin Xarici siyasət şöbəsinin müdir müavini Aleksey Naumov deyib: “Biz yadda saxlamalıyıq ki, Qarabağ - Azərbaycandır. Bu torpaq beynəlxalq hüquqla ona məxsusdur, o bu torpağın qaytarılması uğrunda vuruşub. Ən maraqlısı odur ki, Azərbaycan Şuşanı işğaldan azad etdikdən sonra – zəfərdən əvvəl dayandı və sülhməramlıların buraxılmasına və rayonları mərhələ-mərhələ Azərbaycana qaytarılmasına nəcib və alicənabcasına razılıq verdi. Lakin 90-cı illərdə belə deyildi, azərbaycanlılar az qala paltarsız, ayaqyalın, heç nə götürmədən doğma torpaqlarından qovulurdu və gecikənləri qeyd-şərtsiz qətlə yetirirdilər. Hal-hazırki vəziyyətdə Azərbaycan bundan artıq necə nəcib və humanist davranmalıdır ki?

Həmin verilişin qonağı olan hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru, "Dünya Silah Ticarəti Analizi Mərkəzi" MMC-nin təsisçisi və direktoru İqor Korotçenko isə qeyd edib ki, Ermənistanın müharibədə məğlub olmasına Paşinyan, Soros və Postsovet məkanda ABŞ-ın Ermənistandakı səfirliyi məsuliyyət daşıyır. Paşinyan üçün istefa dövlətə xəyanət ittihamı ilə dərhal cinayət təqibinə başlanılması demək olacaq.

Korotçenko Ermənistanın xilasından da danışıb: “Ermənistanı nə xilas edə bilər? Hüquq mühafizə orqanları əməkdaşının hakimiyyətə gəlməsi. Postsovetdəki və hətta Sovet tarixində çekistlər hər zaman uğur qazanıblar. Məsələn, Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri, nazirlər soveti sədrinin birinci müavini, postsovet tarixində də uğurlu siyasətçidir. İlham Əliyev təhlükəsizlik orqanları əməkdaşının oğludur. O, müharibədə qalib gəlib”.

Ekspertin ədalətli yanaşması yenə də diqqət çəkib: “Azərbaycanlıların öz torpaqlarından avtomatın lüləyi altında necə getdiyini yadınıza salın. Xocalını xatırlayaq. Bir neçə yüz dinc azərbaycanlı, uşaq, qadın, qoca vəhşicəsinə məhv edildi. Erməni birləşmələri onlar üçün humanitar dəhliz açdığı anda 21-ci əsrin soyqırımı baş verdi”...

“İlham Əliyev müharibəyə hazırlaşan və qarşıya qoyulmuş vəzifəni həll edən mütləq qalib kimi görünür. Əlbəttə ki, İlham Əliyev həm siyasi müstəvidə, həm döyüş meydanında Paşinyanı məhv edib. O, daha peşəkar görünürdü. O, əsl Prezident kimi, Paşinyan isə Şuşada qastrol təşkil etmiş pis rəqqas kimi görünürdü”. “İlham Əliyev – Azərbaycanın Milli Qəhrəmanıdır”, bu fikirləri isə tanınmış rusiyalı jurnalist Vladimir Solovyov “Solovyov Live” proqramında səsləndirib.

“Azərbaycanlıları zəif, döyüşməyə meyil etməyənlər kimi təqdim etməyə çalışırdılar. Ermənilər isə guya məğlubedilməz döyüşçüdürlər. Görünür, çoxdandır azərbaycanlıları görməyibsiniz. Mən bu illər ərzində Azərbaycanda çox olmuşam. Azərbaycanda vətənpərvər, savadlı nəsil yetişir. Özü də söhbət sadəcə oğuz türklərindən getmir, burada həm talış, ləzgi, avar, udin, rus, yəhudi, tatlar da daxildir. Azərbaycanda xeyli xalq yaşayır. Azərbaycan dünyəvi dövlətdir. Ermənistan isə, misal üçün, monomilli ölkədir. Siz çətin ki, orada jurnalistlərdən başqa əcnəbiləri görərsiniz”, bunu rusiyalı ictimai-siyasi xadim, jurnalist Maksim Şevçenko söyləyib.

***Ruslan Vəliyev, polis leytenantı***

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında paytaxtın Nizami rayonu ərazisində keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən M.Məlikov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 177 qramdan artıq heroin, 154 qramdan artıq metamfetamin, yaşadığı mənzildən isə 5 kiloqramdan artıq heroin, 820 qram metamfetamin və 1 ədəd elektron tərəzi aşkar edilərək götürülmüşdür.

◆◆◆

Nəqliyyatda Baş Polis İdarəsinin Gəncə Xətt Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 11-də Şəmkir rayonunun Dəllər dəmir yolu stansiyasının ərazisindəki mağazaların birindən 550 manat pul, 1326 manat dəyərində danışıq kartları, 720 manat dəyərində tütün məmulatı və mobil telefon oğurlamaqda şübhəli bilinən qəsəbə sakinləri R.Abbasov və E.İsmayılov saxlanılmışlar.

◆◆◆

Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən paytaxt sakini P.Əliyeva saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqram heroin, 870 qram metamfetamin, Yasamal rayonunun Ə.Əhmədov küçəsindəki evindən isə 3 kiloqram 709 qram heroin, 2 kiloqramdan artıq metamfetamin və 2 ədəd elektron tərəzi aşkar edilərək götürülmüşdür.

◆◆◆

Abşeron RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində “Hyundai” markalı bir avtomobildən 10 min manat oğurlamaqda şübhəli bilinən Xırdalan şəhər sakinləri Ə.Əliyev və F.Hacıyev müəyyən edilərək saxlanılmışlar.

◆◆◆

Bərdə RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 22-dən 25-dək olan müddətdə rayon ərazisində inşa edilən Mədəniyyət Mərkəzindən 27.600 manat dəyərində armatur oğurlamaqda şübhəli bilinən Ucar rayon sakini, əvvəllər məhkum olunmuş V.Quliyev saxlanılmışdır.

◆◆◆

Nizami RPİ 25-ci Polis Şöbəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin rayon şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində S.Əliyevanın yaşadığı mənzilə baxış zamanı oradan 3 kiloqram 200 qrama yaxın heroin, 814 qramdan artıq metamfetamin, metadon və 2 ədəd elektron tərəzi aşkar edilərək götürülmüşdür.

# XALQIN XİDMƏTÇİSİ



Bu ada layiq olmaq, bu adı qazanmaq təşkilatın, qurumun fəaliyyət göstərdiyi sahədə əldə etdiyi ən böyük uğurdur. Çünki həqiqətən vətəndaşın güvənc yeri olmaq, onun inam və etibarını qazanmaq çox çətindir. O eyni zamanda fədakar xidmət, şəffaflıq, operativlik və uzun illər tələb edir.

Daxili işlər orqanları 102 illik xidmət salnaməsində daima vətəndaş məmnunluğunu təmin edib. Bu adı, bu sevgini, sayğını qazana bilib. Azərbaycan Polisi olaraq biz həm də bəxti gətirənlərdənik. O bəxtəvərlərdən ki, zamanın bütün çətinliklərinə sinə gərərək xalqımızı, vətəndaşımızı hər cür cinayətkar qəsdlərdən, təhdidlərdən, bəlalardan qorumağı bacarıb, illərin və nəsillərin sınağından başıuca, üzüağ çıxmışıq.





Geridə qoyduğumuz il üç cəbhədə-cinayətkarlıqla mübarizə, pandemiya və torpaqlarımızın azadlığı uğrunda döyüşən Azərbaycan Polisinin bu sınaqdan da alnıaçıq çıxması, xidməti fəaliyyətində yeni nailiyyətlərə imza atması bunun bariz nümunəsidir. Əslində, əldə olunan uğurlarda vətəndaşların payı, əməyi də böyükdür. Onların asayiş keşikçiləri olaraq bizlərə olan inamı, etimad göstərərək həmrəylik nümayiş etdirmələri gücümüzə güc qatır, fədakar xidmətə daha da ruhlandırır.

Xidmət yolu səngərdən keçən, minlərlə şəhid verən daxili işlər orqanları bu il yenidən yolunu səngərdən saldı. Həmkarlarımız Vətən müharibəsində şücaət, qəhrəmanlıq, igidlik nümayiş etdirərək canlarını müqəddəs amal uğrunda fəda etdilər. Bu yolda qanlarını torpağa qatıb ən yüksək zirvəyə-Şəhidlik zirvəsinə ucaldılar. Və bununla da daxili işlər orqanları əməkdaşları andına, adına sadiqliyini, xalqın xidmətçisi olduğunu bir daha sübut etdilər.





***Teymur Əlizadə, polis kapitanı***

## Oxucuların diqqətinə!

1933-cü il martın 9-dan bugünə kimi işıq üzü görən “Mübariz keşikdə” qəzeti Daxili İşlər Nazirliyinin rəhbərliyinin təşəbbüsü ilə gələn ildən “Polis” başlığı altında dərc ediləcəkdir.

İnanırıq ki, tarix yaşıdı “Mübariz keşikdə”nin yolunu davam etdirməyi qarşısına məqsəd qoyan “Polis” DİN-in həyatında baş verənlərdən tutmuş, ölkə gündəmində maraqla izlənilən ən mühüm hadisələri işıqlandırmaqla yanaşı, milli kimliyimizi, tarixi əzəmətimizi, ən ümdəsi, dilimizin şəhdi-ni-şirəsini kiçik həcmi ilə, ancaq böyük fədakarlıqla qoruyacaq və gələcək nəsillərə ərmağan edəcəkdir.

102 yaşlı Azərbaycan Polisinin, günümüzün qəhrəmanlarının tribunası, söz xəzinəsi olan “Mübariz keşikdə” illər ötsə də daim xatırlanacaq və bundan sonra davamçısı kimi işıq üzü görəcək “Polis”in yollarında əbədiyaşar söz heykəli kimi mayak olacaqdır.

**2021-ci ilin I yarısı üçün “Polis” qəzetinə abunə olmağa tələsin!**

## Dekabr ayının 23-dən 28-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 72 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 53 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 471, o cümlədən borclu şəxs qismində axtarışda olan 411 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 15 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 16 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 34 fakt müəyyən edilmişdir.

## DÜNYAYA PƏNCƏRƏ

Birləşmiş Millətlər Təşkilatının rəsmisi Mişel Baçelet Fransanı “Maddə 24”ü geri çəkməyə çağırıb. BMT rəsmisi Mişel Baçelet yeni qanun layihəsindən narahat olduqlarını və geri çəkilməli olduğunu vurğulayıb. Qeyd edək ki, qəbul edilməsi planlaşdırılan yeni qanuna əsasən artıq həm jurnalistlər, həm də sıravi vətəndaşlar vəzifə başında olan polisləri videoya çəkə bilməyəcəklər. Hətta, bu cür kadrların yayımlanmasına görə həbs cəzasının da veriləcəyi bildirilib. Etirazçılar isə bu qanunun cinayətləri və bir çox həqiqətləri gizlədəcəyini bildirirlər.

*****

***Bu il Rusiyada xüsusi xidmət və hüquq mühafizə orqanları 40-dan çox terror hücumunun qarşısını alıb, 49 yaraqlı məhv edilib və 36 dəstə lideri saxlanılıb. Bu barədə Rusiya Federal Təhlükəsizlik Bürosunun direktoru Aleksandr Bortnikovun rəhbərliyi ilə Terrorla Mübarizə Milli Komitəsinin və Federal Əməliyyat Qərargahının birgə iclasında məlumat verilib.***

***Bortnikov bildirib ki, hüquq mühafizə orqanlarının koordinasiya olunmuş fəaliyyəti nəticəsində bu il Rusiyada terror aktlarının qarşısı alınıb. Hazırlıq mərhələsində olan 41 terror hadisəsi daxil olmaqla 61 terror cinayətinin qarşısı alınıb. Terrorla mübarizə əməliyyatlarında 8 lider olmaqla 49 terrorçu zərərsizləşdirilib. 36 dəstə lideri, 162 döyüşçü və terrorçularla əlbir olan 591 şəxs saxlanılıb. Bundan əlavə, təxminən 600 odlu silah, kustar üsulla hazırlanmış 134 partlayıcı qurğu, 100 mindən çox patron, 3 mindən çox mina, əl bombası və digər sursat ələ keçirilib. Silah istehsalı və konversiyası üçün 50 qanunsuz emalatxana bağlanıb.***

*****

ABŞ-da 37 qətl törətdiyi düşünülən və 1960-cı illərdən bəri axtarışda olan "Zodiac" ləqəbli qatilin verdiyi şifrəli məktub 51 il sonra deşifrə edilib. Kaliforniya ştatında 1960-1970-ci illər arasında 5 cinayətdən məsul olan və qəzetlərə "Zodiac" imzası ilə kodlanmış mesajlar göndərdiyi üçün "Bürc qatili" adı verilən cinayətkarın şəxsiyyətini ortaya qoyacağını vəd edən 340 simvoldan ibarət kod deşifrə edilib.

ABŞ kriptoqrafı David Orançak, avstraliyalı riyaziyyatçı Sam Bleyk və adı qeyd edilməyən belçikalı proqram tərtibatçısı tərəfindən bir neçə ay davam edən araşdırmadan sonra məktub deşifrə edilib.

Səlahiyyətlilər açıqlama verib ki, deşifrə olunan bu məlumatlar qatili tapmağa çox da yardım etməyəcək və araşdırmanın davam etdiyi vurğulanıb. O, 1969-cu ildə qəzetlərlə əlaqə saxlayaraq və polisə zəng vuraraq özünü "Zodiac" kimi qələmə verib. Qatil 1960-cı illərdə yazdığı məktubda 37 nəfəri öldürdüyünü iddia edib. Sözügedən məktubdakı şifrəli mesajında "çox əyləncəli olduğu üçün öldürməyi sevirəm", - deyə qeyd edilib.

Məşhur rejissor David Finşer "Zodiac" adlı filmi ərsəyə gətirib.

*****

***Gürcüstanda cinayət halları illik müqayisədə 10 faiz azalıb. Bu barədə ölkənin daxili işlər naziri vəzifəsini icra edən Vaxtanq Qomelauri illik hesabatı təqdim edərkən bildirib. Nazirin sözlərinə görə, müəyyən cinayət əməlləri ilə bağlı artım qeydə alınıb: “Kibercinayətkarlıq 24, ailə zorakılığı faktları 8,5, qətl halları isə 11 faiz artıb”.***

***V.Qomelauri qeyd edib ki, kriminogen vəziyyətə təsir edən əsas cinayətkarlıq kateqoriyaları olan soyğunçuluq 42, zorakılıq 34, oğurluq əməlləri 25, mənzillərdən qarət halları 22, adam öldürmə cəhdləri isə 5 faiz azalıb.***

***Natiq Cavadov***

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik